

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 187 (23.829)

9 oktyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Dövlət proqramı icra olunur

## Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi davam etdirilir

***Sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərin real həyata uzlaşması, bir fərd olaraq özünəqulluq və özünəxidmət bacarıqlarına malik olması, müstəqil yaşam vərdişlərinə yiyələnməsi, fiziki və əqli inkişaf səviyyəsinə uyğun olaraq təhsil alması onların inkişafını şərtləndirən əsas amillərdən biridir. Muxtar respublikamızda da xüsusi qayğıya ehtiyacı olan şəxslər daim diqqət mərkəzində saxlanılır, onların yüksək səviyyədə təhsil almasına, asudə vaxtlarının səmərəli təşkilinə, cəmiyyətə inteqrasiyasına həssaslıqla yanaşılır. Onlarla bağlı qanunvericilik sistemində yeni təminatların təsbit edilməsi dövlətin uşaqlara göstərdiyi diqqətin ifadəsi olmaqla yanaşı, həm də onların cəmiyyətə inteqrasiyasına təkan verən amildir.***





Həyata keçirilən tədbirlər bu kateqoriyanın nümayəndələrinin sosiallaşmasına, sağlam həyat tərzinə, təhsilə maraqlarının artmasına, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradır. Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlbi onların cəmiyyətə inteqrasiyasının ilkin mərhələlərindən biri hesab olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın da məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin əhatə dairəsinin genişləndirilməsidir.

Proqramda nəzərdə tutulmuş tədbirlərin icracı məqsədilə sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki potensialları nəzərə alınmaqla məktəbəqədər və ümumtəhsil müəssisələrinə cəlb edilməsi ilə bağlı 2021-2022-ci tədris ili üzrə ümumtəhsil məktəblərinə cəlbi istiqamətində təhlillər aparılmış, 56 şagird ümumtəhsil müəssisələrinə cəlb edilmişdir. Həmin uşaqların hər biri dövlət qayğısı ilə əhatə olunmuşdur ki, bu da onların həyatında və inkişafında mühüm əhəmiyyətə malikdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə məşğul olacaq təhsilverənlərin inklüziv təhsil üzrə bilik və bacarıqlarının artırılması diqqətdə saxlanılmış, Naxçıvan Müəllimlər İnstitutu ilə birgə təhlillər aparılmış, təşkil olunacaq seminarlara müvafiq müəllim və məktəb psixoloqlarının cəlbi nəzərdə tutulmuşdur.

Naxçıvanda sağlamlıq imkanları məhdud uşaqlar təhsilə cəlb edilərkən əqli və fiziki imkanlarının müxtəlifliyi, xüsusilə nəzərə alınır. Belə ki, muxtar respublikada eşitmə və hərəkət qabiliyyəti məhdud uşaqlar üçün distant dərslər təşkil olunur, görmə qabiliyyəti məhdud uşaqlar xüsusi ibtidai məktəbə cəlb edilir. Dövlət proqramında da bu istiqamətdə tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. 2021-2022-ci tədris ilində Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin I sinfinə 1, II sinfinə 3, III sinfinə 2, IV sinfinə 1 olmaqla, ümumilikdə, 7 şagird cəlb edilmişdir.

Proqramın əhatə dairəsinə daxil olan uşaqlarla təhsilin təşkilində maddi və digər tələbatların ödənilməsi stimullaşdırıcı əhəmiyyət daşıyır. Bu məqsədlə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud uşaqların dövlət qayğısı ilə əhatə olunmasının əsas göstəricilərindəndir. Dövlət proqramının icrasına uyğun olaraq cari ilin sentyabr ayında tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud uşaqlara məktəbli geyimi və ləvazimatların verilməsi ilə bağlı ümumtəhsil məktəblərində təhsil alan hər iki valideynini itirən 93, sağlamlıq imkanları məhdud 295 və aztəminatlı ailələrin 115 uşağı olmaqla, ümumilikdə, 503 sosial qayğıya ehtiyacı olan uşaq məktəbli formaları və ləvazimatları ilə təmin edilmişdir.

Muxtar respublikada bu sosial kateqoriyadan olan şəxslərin təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından kənarda qalmaması üçün görülən işlər davamlı xarakter almışdır. Bu baxımdan ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə təhsilinə cəlb edilməsi mühüm önəm kəsb edir. Bu baxımdan 2021-ci ilin ötən dövründə Dövlət proqramının icrası istiqamətində görülən işlər nəticəsində Naxçıvan Şəhər Peşə Liseyinin bərbər-manikürçü və Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin xalçaçı kurslarının hər birindən 1 nəfər olmaqla, ümumilikdə, 2 sağlamlıq imkanları məhdud uşaq kursu başa vuraraq sertifikat almışdır. Naxçıvan Şəhər Peşə Liseyinin xalçaçı kursuna isə bu kateqoriyadan olan 1 uşaq cəlb olunmuşdur. Hazırda bu kursun dərsləri davam edir.

İdrak fəaliyyəti, nitq, davranış və şəxsiyyət problemlərinin aradan qaldırılmasında sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili müstəsna əhəmiyyət daşıyır. Uşaqların intellektual və mənəvi inkişafı, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakının təmin edilməsinə yönələn tədbirlər davam etdirilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlərin keçirilməsi, onların məktəbdənkənar müəssisələrə cəlb edilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi “Yay tədbirlər planı”na uyğun olaraq keçirilən əl işlərindən ibarət sərgiyə 36 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Müsahibə mərhələsi başa çatıb

Dövlət qulluğunda vakant vəzifələrin tutulması üçün keçirilən müsahibə mərhələsi başa çatıb. Müsahibə mərhələsində iştirak etmək üçün 259 namizəd qeydiyyatdan keçmiş, həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 6 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunmuşdur.

Müsahibə qrupunun tərkibinə müstəqil ekspertlər, mərkəzin və dövlət orqanlarının nümayəndələri daxildir. Müsahibəyə hazırlıq məqsədilə avqustun 27-də Dövlət İmtahan Mərkəzində 13 müstəqil ekspert və 12 dövlət orqanını təmsil edən 15 nümayəndənin iştirakı ilə seminar keçirilib.

207 namizəd və ya 143 nəfərin iştirak etdiyi müsahibənin nəticələrinə əsasən 40 nəfər bu mərhələdə müvəffəqiyyət qazanıb. Onlardan 24-nün sənədi təyin olunmaq üçün aidiyyəti orqanlara göndərilib və hər biri müvafiq vəzifələrə təyin olunub. 10 nəfər isə dövlət qulluğu vəzifələri üzrə ehtiyat kadrlar siyahısına salınıb.

Qeyd edək ki, 18 dövlət orqanı tərəfindən müsabiqəyə çıxarılan 59 vakant vəzifənin tutulması üçün 729 namizəd sənəd təqdim edib. Test mərhələsində iştirak edən 662 namizəddən 285-i müvafiq keçid balını toplayıb. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün 13 namizəd müraciət edib. Esse imtahanında iştirak edən 12 namizəddən 8-i keçid balını toplayıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən sentyabr ayı ərzində muxtar respublikada əkilmiş qarğıdalı bitkisi məhsulunun yığımının qısa müddətdə başa çatdırılması, 2022-ci təsərrüfat ilində, əsasən, yağ üçün qarğıdalı və günəbaxan bitkilərinin əkinlərinin aparılması, eləcə də əkinlərə aqrotexniki qaydada qulluq göstərilməsi haqqında maarifləndirici söhbətlər aparılıb, müvafiq Dövlət proqramlarının icrası ilə əlaqədar işlər davam etdirilib.***

## Kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılır

Ötən ay əkinlərin əkin atlaslarına uyğun aparılması, keyfiyyətli şumun qaldırılması, toxumların dərmanlanması, torpaqların şoranlaşmasının qarşısının alınması, torpaq analizlərinin aparılması, torpağın münbitliyinin artırılması yolları, tarlaqoruyucu yaşıllıq zolaqlarının salınmasının əhəmiyyəti, meyvə və üzüm bağlarında məhsul yığımından sonra zərərvericilərə qarşı kimyəvi və bioloji mübarizə tədbirlərinin aparılması mövzularında torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahiblərinin iştirakı ilə tarla-seminar müşavirələri keçirilib. Qarğıdalı biçinində, payızlıq şumun qaldırılmasında və taxıl əkinində iştirak edəcək texnikaların texniki vəziyyəti nəzarətdə saxlanılıb, texnika mülkiyyətçiləri ilə görüşlər keçirilib. Müasir texnologiyalar tətbiq edilməklə əkinlərin keçirilməsinin üstünlükləri, səmərəliliyi və məhsuldarlığa təsiri barədə ətraflı söhbətlər aparılıb.



Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə zərərverici və xəstəliklərə qarşı mübarizə ilə bağlı müraciət edən 5 vətəndaşa lazımi tövsiyələr verilib, köməklik göstərilib.

Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Babək rayonunun Şıxmahmud, Aşağı Uzunoba və Yuxarı Uzunoba, Cəhri və Vayxır kəndlərində torpaq tədqiqat işləri aparılıb, torpaq nümunələri götürülərək analiz olunması üçün laboratoriyaya verilib. Analizlərin nəticələrinə əsasən əkiləcək bitkilərin qida maddələrinə tələbatından və məhsuldarlığından asılı olaraq hər bir bitki üçün üzvi və mineral gübrələrin normaları müəyyənləşdiriləcək qida maddələri ilə təminolunma kartoqramları Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunda hazırlanıb. Birliyin Bitki sortlarının seleksiyası, sınağı, mühafizəsi və toxumçuluq şöbəsi tərəfindən “Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraitində bərk və yumşaq buğda genotiplərinin tədqiqi, quraqlığa, şaxtaya, xəstəlik və zərərvericilərə qarşı davamlılıq xüsusiyyətləri, məhsuldarlıq elementlərinin öyrənilməsi” mövzusunda aparılan tədqiqata dair əldə edilmiş materialların analizləri aparılaraq daha məhsuldar və yüksəkkeyfiyyətli sort və hibrid nümunələri hazırlanması üçün seçilib. Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinə gətirilmiş toxum nümunələri analiz olunaraq nəticələri haqqında təsərrüfat sahiblərinə məlumat verilib, müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət etmiş 35 ailə təsərrüfatı sahibinin gətirdiyi nümunələrə baxılaraq onlara müvafiq məsləhət və tövsiyələr verilib.

Hesabat dövründə mal-qaranın cins tərkibini yaxşılaşdırılması üçün süni mayalanma işinin davam etdirilməsi, payız-qış mövsümünə hazırlıq, heyvanlara zoobaytar qaydalara uyğun qulluq edilməsi, baytarlıq tədbirlərinin vaxtında və düzgün aparılması, arı ailələrinin qışlamaya hazırlanması, ev quşlarının gigiyenası, onların yemlənməsi, saxlanması və inkubasiya qaydaları, xəstəliklərdən qorunması məqsədilə sahibkarlarla fərdi qaydada maarifləndirici görüşlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Qarğıdalı biçini yekunlaşmaq üzrədir



Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Babək rayonunun münbit torpaqları burada aqrar sahənin inkişafına geniş imkanlar yaradıb. Ona görə də rayonda həm də qarğıdalı əkilib-becərilməsinə xüsusi önəm verilir. Hər il bölgənin torpaq mülkiyyətçiləri iqtisadi cəhətdən səmərəli olan bu sahədə xeyli gəlir əldə edirlər. Onlar dövlət tərəfindən müxtəlif yardımlarla, yüksək reproduksiyalı toxumlarla təchiz olunurlar. Tədarük edilən məhsulun satılmasında da heç bir çətinlik yoxdur. Cari ildə də babəklilər öz torpaqlarında bu məhsulun becərilməsi ilə məşğul olublar. Rayonda 201 hektar sahədə dən üçün qarğıdalı əkini həyata keçirilib. Sahələrə vaxtlı-vaxtında və aqrotexniki qaydada qulluq göstərilib. Bu səbəbdəndir ki, torpaq mülkiyyətçiləri bol məhsul yetişdirməyə nail olublar.

Bu il rayonun Nehrəm və Cəhri qəsəbələrində, Şıxmahmud, Uzunoba və başqa kəndlərində qarğıdalı əkinlərinə daha geniş yer verilib. Artıq sahələrdə məhsul tədarükünə başlanılıb. Bunun üçün texnikalar saz vəziyyətə gətirilib. Rayon İcra Hakimiyyətindən aldığımız məlumatda deyilir ki, 151 hektar sahədə biçin aparılıb.

Onu da qeyd edək ki, bu il qarğıdalının kiloqramı 40 qəpikdən qəbul edilərək dəyəri yerində ödənilir.

**Həsrət NAĞIYEVA**

***Ölkəmizin ictimai fikir tarixində belə bir deyim formalaşmışdır ki, Azərbaycanın mütərəqqi ideyaları Naxçıvandan gəlir. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Fərmanı ilə görkəmli səhiyyə təşkilatçısı Əqil Mehdiyevin anadan olmasının 100 illiyinin təntənəli tədbirlər silsiləsi ilə keçirilməsindən sonra professor Tamerlan Əliyevin 100 illiyinin qeyd edilməsi bu qənaətin əsassız olmadığını göstərir.***

## Görkəmli tədqiqatçı-alim, qayğıkeş müəllim, bacarıqlı təşkilatçı və şəfqətli həkim



Gənc yaşlarından elmi fəaliyyətlə məşğul olan və çox böyük nailiyyətlər əldə edən Tamerlan Əliyevin bir həkim və elm adamı kimi fəaliyyəti, keçdiyi mənalı ömür yolu bu gün tibb təhsili alan tələbələr və gənc alimlər üçün bir nümunədir.

Tamerlan Əliyev şəfqətli həkim, görkəmli alim və pedaqoq ömrü yaşayıb və ölkəmiz üçün tibb sahəsində yüksəkixtisaslı elmi kadrların hazırlanmasında əvəzsiz xidmətləri olub. Bu gün onun elmi məktəbinin yetirmələrinin adları nəinki ölkəmizdə, hətta ölkə hüdudlarından kənarda da böyük ehtiramla çəkilir.

Tamerlan Əliyev 1921-ci il oktyabrın 3-də Naxçıvanın Şahtaxtı kəndində görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb, alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə alıb. 1929-cu ildə Bakıdakı 3 nömrəli ibtidai məktəbdə oxumağa başlayıb, sonralar təhsilini 176 nömrəli orta ümumtəhsil məktəbində davam etdirib. 1940-cı ildə orta məktəbi "əla" qiymətlərlə bitirən Tamerlan Əliyev o dövrün qaydalarına görə qəbul imtahanlarından azad edilib və həkim olmaq arzusunu reallaşdırmaq məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

Oxuduğu müddətdə özünün səyi, çalışqanlığı, bacarığı, erudisiyası və əməksevərliyi ilə müəllimlərinin rəğbətini qazanıb, təhsildə və ictimai işlərdə fəallığına görə dövrünün ən yüksək tələbə təqaüdü sayılan Stalin təqaüdçüsü olub və o zaman yüksək təltif hesab olunan Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına layiq görülüb.

Tamerlan Əliyev hələ 1943-cü ilin sentyabrında sonuncu kursda oxuyarkən artıq Bakı şəhərindəki Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda epidemioloq kimi əmək fəaliyyətinə başlamış, 1944-cü ildə isə Azərbaycan Dövlət Tibb İnstitutunun Mikrobiologiya kafedrasında assistent kimi fəaliyyət göstərmişdir. Gənc məzun 1945-ci ildən etibarən Azərbaycan Dövlət Tibb İnstitutunun fakültativ terapiya – Azərbaycan Tibb Universitetinin indiki II Müalicə – profilaktika fakültəsinin Daxili xəstəliklər kafedrasında kliniki ordinator, assistent, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmış, beləliklə, onun bütün sonrakı fəaliyyəti Azərbaycan Tibb Universiteti ilə bağlı olmuşdur.

Onun çoxcəhətli elmi tədqiqatlarının əsasını Azərbaycanın kurort amillərinin müalicəvi təsiri, endokrin sistem xəstəliklərinin patogenezinin, klinikasının və müalicə üsullarının öyrənilməsi, qanın laxtalanma, əks laxtalanma və fibrinoliz sistemində patoloji şəraitdə baş verən dəyişikliklər və onların korreksiya üsulları, miokard infarktının müalicəsi və digər problemlər təşkil edib. Həkimlik fəaliyyətinə başladığı ilk illərdə Azərbaycan kurort amillərinin, o cümlədən İstisu və Darıdağ sularının, Naftalan neftinin insan və heyvan orqanizminə təsir mexanizmlərinin öyrənilməsi ilə məşğul olmuş, Naftalan neftinin orqanizmin reaktivliyinə təsirinin öyrənilməsinə böyük əmək sərf etmiş və 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

O apardığı elmi-tədqiqat işlərinin nəticələrinə əsasən 1969-cu ildə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə periferik damarların vəziyyəti; metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır.

1970-ci ildə SSRİ Ali Attestasiya Komissiyası onun professor alimlik adını təsdiq etmiş və elə həmin ildən Tamerlan Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun Daxili xəstəliklər kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 20 il bu vəzifədə çalışmış, 1990-cı ildə öz yetirməsinin həmin vəzifəyə seçilməsinə zəmanət vermiş, özü isə 1990-cı ildən ömrünün sonuna qədər kafedranın professoru vəzifəsində çalışmışdır.

1975-ci ildə görkəmli alimin şəxsi təşəbbüsü və səyi nəticəsində Fuad Əfəndiyev adına 4 nömrəli Bakı Şəhər Klinik Xəstəxanasının nəzdində 90 çarpayılıq Endokrinologiya şöbəsi yaradılıb. Həmin dövrdə Tamerlan Əliyevin təşəbbüsü ilə Daxili xəstəliklər kafedrasının nəzdində Azərbaycanda ilk dəfə intensiv kardioloji yardım, reanimasiya və intensiv terapiya bloku, Funksional diaqnostika şöbəsi təşkil edilib.

Azərbaycanda kardioloji xidmət sisteminin təşkili sahəsinin inkişafında da onun böyük əməyi olub. Novator alimin təşəbbüsü ilə keçmiş SSRİ miqyasında ilk dəfə 4 nömrəli Klinik Xəstəxananın nəzdində miokard infarktı və şəkərli diabeti olan xəstələrin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, həmçinin intensiv terapiyası təşkil edilib və beləliklə, respublikada həmin xəstəliklərdən ölüm faizi azalıb.

Tamerlan Əliyevin Azərbaycan tibb tarixi salnaməsinə qızıl hərflərlə yazılmış xidmətlərindən biri də onun təşəbbüskarlığı, təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan Səhiyyə Nazirliyinin Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutudur. Belə bir möhtəşəm müalicə diaqnostika mərkəzinin fəaliyyətə başlaması Azərbaycan səhiyyəsinin, tibb elminin inkişafına güclü təkan vermişdir.

1983-cü ildə onun səyi və təşəbbüsü ilə Ümumittifaq Endokrinoloqlar Cəmiyyətinin səyyar elmi sessiyasının Bakıda keçirilməsinə nail olunması Azərbaycan səhiyyəsində böyük tarixi hadisəyə çevrilmişdir.

Görkəmli alim uzun illər Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş terapevti, Bakı Şəhər Səhiyyə İdarəsinin baş endokrinoloqu, Səhiyyə Nazirliyinin IV Baş İdarəsinin məsləhətçisi, ictimai əsaslarla Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətinin üzvü və sair kimi vəzifələri yerinə yetirmiş, SSRİ Ümumittifaq Endokrinoloqlar, Kardioloqlar və Nefroloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir. O, həmçinin Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən Terapiya ixtisası üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının sədri vəzifəsində çalışmış, bu sahə üzrə gənc elmi kadrların yetişməsində öz köməyini əsirgəməmişdir.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitinin, metodik tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çox sayda elmi-kütləvi məqalənin müəllifi olub. Onun "Klinik-diaqnostik laborator tədqiqat üsulları", "Şəkərli diabet haqqında ətraflı məlumat", "Biokimyəvi tədqiqat üsulları", "Şəkərli diabet", "Prediabet", "Karbohidrat mübadiləsinin pozulmaları və ürəyin işemik xəstəliyi", "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi", "Endokrinologiya" adlı əsərlər indi də öz aktuallığını saxlayır, həkimlər və tələbələr tərəfindən geniş istifadə edilir. Alim, həmçinin tərcüməçilik işi ilə də məşğul olub, A.V.Sumarokov və A.A.Mixaylovun "EKQ üzrə vəsait" adlı kitabını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

Tamerlan Əliyev uzun illərin təcrübəsi sayəsində əldə etdiyi praktik vərdişlər və nəzəri biliklər əsasında qələmə aldığı "Endokrinologiya" dərsliyi bu sahə üzrə Azərbaycan dilində yazılmış ilk irihəcmli, genişhəhatəli əsərdir. Onun "Klinik-diaqnostik laborator tədqiqat üsulları" monoqrafiyası SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalına və Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

Görkəmli alimin elmi məsləhətçiliyi və rəhbərliyi altında 5 doktorluq və 25 namizədlik dissertasiyası yerinə yetirilib. Onun hazırladığı kadrlar Azərbaycanın hüdudlarından kənarda da uğurla fəaliyyət göstərərək müəllimlərinə başucalığı gətiriblər.

Tamerlan Əliyev Türkiyə, ABŞ, Fransa, İngiltərə, Almaniya, Kanada, İsveçrə, Finlandiya və başqa ölkələrdə keçirilmiş elmi toplantılarda özünün maraqlı məruzələri ilə Azərbaycanı layiqincə təmsil etmişdir.

XX əsrin 70-80-ci illərində tədrisin islahatlar yolu ilə təkmilləşməsinə böyük töhfələr vermiş alim tədris-metodik işlərin müasir tələblər səviyyəsində aparılmasına, tədrisin keyfiyyət göstəricilərinin, həmçinin nəticələri səhiyyə praktikasına tətbiq olunan elmi-tədqiqat işlərinin sayının və sanbalının artmasına nail olmuş, nümunəvi bir kafedra yaratmışdır. Qeyd edək ki, Tamerlan Əliyev ölkədə tədris-metodik işlərin ən gözəl bilicilərindən biri kimi tanınırdı.

Tamerlan Əliyev səhiyyə, təhsil və elm sahəsində əldə etdiyi nailiyyətlərə görə dövlət tərəfindən bir sıra fəxri ad, orden və medallara – "Əməkdar elm xadimi" fəxri adına, "Şərəf nişanı" və "Oktyabr İnqilabı" ordenlərinə, "Azərbaycan SSR Dövlət Mükafatı" laureatı adına, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalına, "Səhiyyə əlaçısı" döş nişanına, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına və digər təltiflərə layiq görülmüş, sanballı elmi-metodik işlərinin dəyərli nəticələrinin müqabilində dəfələrlə SSRİ İxtiralar və Kəşflər üzrə Dövlət Komitəsinin sertifikatlarını almışdır.

Hamıya məlumdur ki, Tibb Universitetində tibbi təhsilin metodikasını öyrədən heç bir fənn yoxdur və biz həkim-müəllimlər təbabətin tədrisi məsələlərini öz müəllimlərimiz olan Kamil Balakişiyev, Mustafa Topçubaşov, Böyükbəy Mahmudbəyov, Cəlil Hüseynov, Emin Əfəndiyev, Böyükkişi Ağayev, Adilə Namazova, Tamerlan Əliyev kimi dünya şöhrətli həkimlərimizdən öyrənmişik. Hippokrat andı içmiş həkimlərin müəllimlik fəaliyyətlərində də andlarına sadiq qalmaları onların öz peşələrinin tədrisi prosesinin də yüksək səviyyədə keçməsini təmin edir. Tamerlan Əliyev və digər korifey həkim-müəllimlərin tədris-tərbiyə prosesində aşıladıqları professionallıq, vətənpərvərlik və həyat dərslərinin bariz nəticələri kimi onlarla həkimin I və II Qarabağ müharibələri və mövcud pandemiya dövründə öz məsləkləri uğrunda şəhidlik zirvəsinə yüksəlmələrini misal göstərmək olar.

*1997-ci il aprelin 7-də əbədiyyətə qovuşmuş unudulmaz alimin əziz xatirəsi daim qəlbimizdə yaşayır və yad edilir. Son dərəcə səmimi, təvazökar, obyektiv, qayğıkeş, özünə və əməkdaşlarına qarşı ciddi və tələbkeş, eyni zamanda həssas qəlbli bir insan olan Tamerlan Əliyevin tarixə çevrilmiş zəngin elmi və pedaqoji irsi, gəncləri elmə həvəsləndirən mütərəqqi ideyaları diqqətlə öyrənilir və bundan sonra da öyrəniləcək, bütün dövrlərdə öz mütərəqqi təsiri ilə tibbi kadrların elmi-praktik fəaliyyətlərində sönməz bir mayak kimi onlara yol göstərəcəkdir.*

**İsa ABDULLAYEV**
***tibb elmləri doktoru,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

## Standartların tələbləri təmin olunur

Yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı, xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq, istehlakçı hüquqlarının qorunması muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətidir. Bu çərçivədə istehlak bazarında müasir standartlara cavab verən məhsulların satışının və keyfiyyətli yerli məhsulların istehsalının təşviqi, həmçinin istehlakçı hüquqlarının müdafiəsi qarşıya qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər cari ilin sentyabr ayında da davam etdirilmiş, məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu diqqətdə saxlanılmışdır. Ötən ay, ümumilikdə, məhsulların 95 halda, o cümlədən qida məhsullarının 93 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və nöqsan aşkar edilməmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin, Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin və Naxçıvan Muxtar Respublikası Arıçılar İctimai Birliyinin nümayəndələri ilə birlikdə hesabat ayında Şərur rayonunun Mahmudkənd və Babək rayonunun Aşağı Buzqov yaşayış məntəqələrində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmişdir. Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay arıçılıq məhsullarının 24, emal olunmuş kənd təsərrüfatı məhsullarının 27, meyvə-tərəvəz məhsullarının isə 15 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur.

Hesabat ayında Culfa rayonunun Ərəzin kəndində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, muxtar respublika üzrə 2 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir.

Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 24 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş və standartlara uyğunluğu müəyyən edilmişdir.

"Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir. Cari il sentyabrın 10-da muxtar respublikada ixracyönlü məhsul istehsal edən və keyfiyyəti idarəetmə sistemi tətbiq edilməmiş müəssisələrin nümayəndələrinin iştirakı ilə ISO beynəlxalq keyfiyyəti idarəetmə standartlarının tətbiqi, ixrac qabiliyyətli məhsulların əmtəə nişanlarının mühafizəsi və beynəlxalq sistem vasitəsilə qeydiyyatı istiqamətində maarifləndirici seminar keçirilmiş, müvafiq standartların əsas prinsip və tələbləri izah edilmiş, əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsinin təmin edilməsi prosedurları barədə təsərrüfat subyektləri məlumatlandırılmışdır.

"2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası üzrə Naxçıvan Muxtar Respublikası Turizm Departamenti ilə birgə ötən ay turizm sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri üçün seminar keçirilmişdir. Seminarda turizm sahəsində mövcud olan dövlət standartları haqqında məlumat verilmiş, "Turizm ictimai iaşə müəssisələrinin təsnifatı və onlara qoyulan tələblər" mövzusunda geniş çıxış olmuşdur.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üzrə aidiyyəti orqanların əməkdaşları ilə birlikdə cari il sentyabrın 9-da Culfa rayonunun Ərəzin kəndində ailə təsərrüfatları üçün keçirilmiş seminar-müşavirə zamanı iştirakçılara kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair məlumatlar çatdırılmışdır.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinə diqqətdə saxlanılması üçün 3 müəssisədə istehsal edilən arağın 7, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyənləşdirilmişdir. İstehlakçıların məhsul haqqında dolğun məlumatlandırılması məqsədilə 3 müəssisədə istehsal edilən 16 məhsulun etiket layihəsi standartlara uyğun olaraq hazırlanmışdır.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə 913 qaz cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 20 qaz cihazının idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***



*Bu bizim Naxçıvana ilk səfərimiz idi. Amma Bakada yaşayan naxçıvanlı dostlarımızın Nuh Peyğəmbərdən, onun gəmisindən az maraqlı olmayan söhbətləri Naxçıvan və ümumən, muxtar respublikanın bu günü, hazırkı halı barədə aydın təsəvvürlərimizi yaratmışdı. Hətta olub ki, eşitdiyimiz söhbətlərin reallıqdan qaynaqlandığına inanmamışıq. Naxçıvanı elə vəsf edirdilər ki, eşitdiklərimizə "şişirdirsiniz", "bu qədər ola bilməz" kimi cavablarla qarşılıq verdiyimiz anlar da olub. Qısası, gözümüzün önündə Naxçıvanın elə bir şəkli çəkilmişdi ki, bu diyara səfər etmək həvəsimiz, məsələn, Havay adalarına getmək istəyimizi belə, üstələmişdi. Naxçıvanı görməyə, eşitdiklərimizin həqiqətlə qohumluq əlaqələrini müəyyənləşdirməyə o qədər tələsirdik ki, inanın, qalxmağı ilə enməyi arasında cəmi 50 dəqiqəlik zaman kəsiyi olan təyyarədə uçuş vaxtımız bizə 50 saat təsiri bağışladı. Nəinki səbrimiz, həmin anlarda heç havamız da çatmırdı. Köməyimizə təyyarə bələdçisi gəldi. Daha doğrusu, onun salonda eşidilən səsi: "Hava limanına eniş edirik!"*

# Nuh Peyğəmbər də bilirmiş gəmini hara sürmək lazımdır...
## Naxçıvanda nələr gördük?

*Könül mülkündən REPORTAJ*

Hava limanından çıxıb avtomobillə şəhər istiqamətinə hərəkət edərkən cəmi bir neçə dəqiqəlik müşahidə kifayət etdi ki, bizi qarşılayan dostlara elə beləcə də deyək: sən demə, biz bayaqdan YÜKSƏLİŞƏ eniş edirik... Yüksəliş deyəndə, əlbəttə ki, Naxçıvanın sürətli inkişafını nəzərdə tuturduq. Naxçıvanda olduğumuz günlər ərzində onu da öyrənəcəkdik ki, muxtar respublikanın inkişafı ən ucqar dağ kəndlərini belə, əhatə edir.

Gözoxşayan müasir görkəmi ilə fərqlənən, qədim və nadir memarlıq nümunələri ilə tarixin dərinliklərindən xəbər verən, füsunkar təbiəti ilə seçilən, dahi alimlər, ədiblər, sərkərdələr yetirmiş, dünya siyasətinə Heydər Əliyev kimi dühanı bəxş etmiş diyardır Naxçıvan...

. Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı kifayət qədər yüksəkdir. Hətta ağır pandemiya şəraitində belə, Naxçıvanda tənəzzülə oxşayan hallara rast gəlinmədi. Məsələn, muxtar respublikanın İqtisadiyyat Nazirliyinin rəsmi saytındakı məqalədə yer almış rəqəmlər Naxçıvanın öz əzəli inkişaf tempini qoruyub saxladığını göstərir.

Ecazkar təbiət teatrına malik Naxçıvan sürətli inkişaf mərhələsindədir. Muxtar respublikada hər yerində nəhəng quruculuq işləri aparılır. Böyük sənaye kompleksləri, müasir standartlara cavab verən istirahət və turizm mərkəzləri yaradılır.

Diqqət edək: 2021-ci ilin ilk rübü ərzində muxtar respublikanın iqtisadi mənzərəsi ürəkaçan olub. 557 milyon 426 min 300 manatlıq ÜDM istehsal olunmaqla, müqayisəli qiymətlərlə 1 il öncəki göstəricidən 0,6 faiz çox nəticə əldə olunub. Adambaşına düşən ÜDM isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz artıb.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin ilk rübü ərzində sənaye məhsulu 1 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,2, nəqliyyat sektorunda yük daşınması 0,8 faiz, informasiya və rabitə xidmətləri isə 9,9 faiz artım nümayiş etdirib. Şübhəsiz deyə bilərik ki, növbəti rüblərlə də bağlı göstəricilər məyusedici olmayacaq.

Təhlillər göstərir ki, muxtar respublikanın inkişafını şərtləndirən əsas səbəblər sırasında özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinə hərtərəfli şərait yaradılması, turizm potensialından maksimum yararlanmaq üçün göstərilən səylər dayanır. Bu xüsusda daxili istehsalı gücləndirmək və ixracyönümlü məhsullar hazırlayan müəssisələrin artması və genişləndirilməsi istiqamətində atılan addımlar da diqqətçəkəndir. Məsələn, Azərbaycanın ilk su brendi – dünya şöhrəti qazanmış "Badamlı"nın istehsal olunduğu müəssisədə yaradılmış şəraitlə tanış olarkən yerli istehsalın artımı üzrə qarşılaşdığımız rəqəmlərin göydəndüşmə olmadığına bir daha əmin olduq.

"Badamlı" Mineral Sular Zavodunda gördüklərimizdən sonra bizə, ancaq məşhur mahnıda deyilənləri təkrarlamaq qalır: "Bəh-bəh nə gözəl suyu var Azərbaycanın".

"Badamlı" Zavodundan hazırladığımız reportajı ayrıca təqdim edəcəyik.

"Saat Meydanı" otelinin həyətində çox maraqlı görüntülərlə qarşılaşdıq. Hətta bir anlıq özümüzü xarici ölkədə hiss etdik. Özü də o bir anın içində bir neçə ölkə cəmləşmişdi – Türkiyə, Gürcüstan, İngiltərə, Çin... Təsəvvürlərimiz bizi uzaqlara aparsa da, reallıqda turistlərin özlərini həm də evlərində hiss etmələrinə qədər ən xırda detalların düşünüldüyü Naxçıvandaydıq – Nəqşicahanda, Azərbaycanda!

Naxçıvanda turizmin inkişafı, bu sahənin rentabelliyini artırmaq yönündə həyata keçirilən proqramlar da artıq effektiv nəticələrə gətirib çıxarır. Son illər muxtar respublikada gözoxşayan istirahət və ticarət mərkəzləri, yüksək standartlara cavab verən otellər yaradılıb ki, bütün bunlar da həm qonşu ölkələrdən, həm də Azərbaycanın digər bölgələrindən daha çox turistin muxtar respublikaya diqqətinin yönəlməsinə səbəb olur. Turizm infrastrukturunun genişləndirilməsi prosesi isə durmadan davam etdirilir. Biz Naxçıvanda olduğumuz günlər ərzində təkcə şəhərdə deyil, həm də Şahbuz rayonunda xeyli turistlə rastlaşdıq. Dillərdə dastana çevrilmiş Batabat gölü ətrafında belə, onlarla xarici turistlə üz-üzə gəldik.

Naxçıvanın turizm infrastrukturunun inkişafından danışırıqsa, Ağbulaq İstirahət və Xizək Mərkəzindən söz açmaya bilmərik. Turistlərin rahatlığı üçün burada bütün imkanlar yaradılıb. Qidalanmanın səviyyəsindən tutmuş, istirahət otaqlarının vəziyyətinə qədər hər şey, necə deyərlər, çiçək kimidir. Burada qonaqlara elə bir Naxçıvan süfrəsi açılır ki, bir gələn mütləq bir də gəlmək istəyir. Gülərüz personalın qonaqlarla ünsiyyət qurmaq bacarığı isə heyranedicidir. Bizim, təbii ki, ünsiyyətlə bağlı problemimiz yox idi. Ən azı mehriban münasibətlərin qurulması xüsusunda yetərincə təcrübəmiz var...

Yay aylarında gəzmək, istirahət etmək üçün qürbət ölkələr axtarırıq, amma Azərbaycanda, bəlkə də, çoxlarının Naxçıvanın turizm imkanlarından xəbəri yoxdur. Buraya bir dəfə gələn olarsa, hər dəfə istirahətini məhz burada etmək istəyəcəyinə şübhəmiz yoxdur. Çünki Naxçıvanda turistlərin mənalı istirahəti üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan həm də yeniliklər yaradılan diyardır. Burada o qədər lazımlı, insanların rahatlığını təmin edən yeniliklər tətbiq olunur ki, könül istər bunların hamısı Azərbaycanın digər bölgələrində də tətbiq olunsun. Məsələn, Şahbuz rayonunun Ağbulaq İstirahət Mərkəzi, bu kompleksə həm də Ağbulaq Xizək Mərkəzi də daxildir. Naxçıvanın müxtəlif idarə və müəssisələrində, dövlət idarələrində çalışan sakinləri hər həftənin şənbə və bazar günləri növbəli qaydada buraya təşrif buyurur, iki gün ərzində burada istirahət edir, əylənirlər, yaşayırlar, həm də təbii ki, qidalanırlar. Eyni zamanda burada yenə də növbəli qaydada məktəb şagirdlərinin, universitet tələbələrinin, ümumən, gənclərin istirahəti də təmin olunur. İki gün ərzində onlar da kompleksin, bu istirahət mərkəzinin bütün xidmətlərindən istifadə edirlər. Həmçinin şəhid övladlarının da burada istirahəti təmin olunur. Onlar da buraya təşrif buyururlar və iki gün ərzində istirahət edirlər. Maraqlıdır ki, bütün bunlara görə insanlar mərkəzə hər hansı ödəniş etmirlər. Ödənişlərin hamısı Həmkarlar İttifaqı komitələri tərəfindən həyata keçirilir.

İndi gələk bizim, doğrudan da, ilk dəfə eşidəndə inanılmaz görünən faktlara. Naxçıvanda uşaqlar atılmır. Heç kəs öz balasından imtina eləmir. Şəhərdəki uşaq evində atılmış, imtina olunmuş körpələrə rast gəlinmir. Valideynləri dünyasını dəyişmiş uşaqlar olarsa, bu halda onlar hərtərəfli araşdırmalardan sonra yaxın qohumlarının himayəsinə verilirlər. Ancaq bununla da iş bitmir. Uşaqların bütün ehtiyacları yetkinlik yaşına qədər muxtar respublikanın müvafiq qurumları tərəfindən qarşılanır.

Digər maraqlı fakt isə cinayət halları ilə bağlıdır. Daha doğrusu, onların azlığı və deyərdik ki, ümumiyyətlə, olmaması ilə bağlı. Muxtar respublikada ağır cinayətlər, ümumiyyətlə, baş vermir. Burada kimsə kimsənin başını kəsmir. Kimsə kiməsə silah tuşlamır. Ara-sıra qeydə alınan hansısa məişət mübahisələri, yaxud avtomobil qəzaları nəticəsində yaranan hüquqi məsuliyyət isə hesaba alınmaya da bilər.

Naxçıvanın kəndlərində diqqətimizi çəkən layihələrdən biri də kənd mərkəzləri oldu. Burada həm bələdiyyələr, eyni zamanda icra nümayəndəliyi, poçt, internet və kompüter otaqları təşkil olunub ki, insanlar idarələr arasında qalmadan, get-gəl etmədən öz işlərini bir neçə dəqiqənin içində, bir mərkəzdə həyata keçirə bilirlər. Bir növ "ASAN xidmət"in kənd modeli təşkil olunub.

Naxçıvanda hər kəs öz işi ilə məşğuldur. Burada iş üçün də hər bir şərait var, əylənmək, istirahət etmək üçün də. Əgər dövlət qurumları hər şənbə və bazar günləri sənin istirahət mərkəzlərində tam paket pulsuz istirahətini təmin edirlərsə, təhsildə yüksək nəticələr əldə edən övladına hərtərəfli qayğı göstərilirsə, məktəblilərin vaxtının səmərəli keçirilməsi üçün onları müntəzəm olaraq hansısa istirahət mərkəzinə bilik yarışlarına və seminarlara cəlb edib, həmin mərkəzdəki bütün xidmətlərdən pulsuz istifadə imkanı yaradırlarsa, kənddə yaşayırsansa, xəstələnəndə rayon mərkəzinə və ya şəhərə getməməyin üçün şəhərdəki klinikalardan fərqlənməyən tibb məntəqələri ərsəyə gətirilirsə, hansısa sənəd almağın üçün idarələr arasında qalmayasan deyə, bütün administrasiyanı "ASAN xidmət" təsiri bağışlayan "KƏND MƏRKƏZİ" adlı binalarda cəmləşdirirlərsə, dərzini də, bərbəri də, çəkməçini də, axtardığın ərzağı da bir ünvanda tapırsansa, çağırdığın taksi 2 dəqiqəyə yanında olursa, ödəniş edərkən 20 qəpik qalığı belə, sənə qaytarırlarsa, avtobuslar saat dəqiqliyi ilə işləyirlərsə, ucqar dağ kəndlərindəki məktəblər Bakıdakı məktəblərdən fərqlənmirlərsə, müasir tələblərə cavab verən texniki vasitələrlə təmin olunurlarsa, nəinki kəndlərarası, hətta kənd içindəki yollar da Avropa yollarını xatırladan vəziyyətdədirlərsə, niyə cinayətə meyillənəsən ki? Belə yerdə adama, ancaq Allaha şükür etmək qalar...

Odur ki, gəlin razılaşaq: Naxçıvan, doğrudan da, könül mülkünün barı, ellərin sevimli yarıdır. Nuh Peyğəmbər də bilirmiş, gəmini hara sürmək lazımdır...

Naxçıvanın tarixi memarlıq abidələrinin sırası kifayət qədər genişdir. Vaxtımızın azlığından yalnız bir neçəsinə baş çəkə bildik. Çox arzulayırdıq ki, Əlincə qalasına da gedək. Təəssüf, buna da vaxt imkan vermədi. İnşallah, növbəti səfərimizdə mütləq o möhtəşəm qalanı ziyarət edəcəyik. Həm də gözümüz Duzdağ Fizioterapiya Mərkəzində qaldı. Orada cəmi bir neçə dəqiqə olduq. Gördüklərimiz, insanların müalicəsi və istirahəti üçün yaradılmış şərait, doğrudan da, valehedicidir. Türkiyəli qardaşlarımız demişkən, 10 numaralıq bir yerdir. Yolunuz düşərsə, mütləq baş çəkin. Görün, Allah Naxçıvana hansı sərvətləri bəxş edib.

Hə, lap yadımızdan çıxmışdı. Naxçıvanda hətta işıqforlar da danışır. Özü də Naxçıvan ləhcəsi ilə...

Naxçıvan həm də Birinci və İkinci Qarabağ müharibəsində böyük şücaətlər göstərmiş, torpaqlarımızın azad olunmasında misilsiz xidmətləri olan qəhrəman oğulların məskənidir. Yüzlərlə şəhid verib bu diyar. Allah hər birinə rəhmət eləsin.

Yolunuz həmişə açıq olsun, əziz Naxçıvan camaatı! Həmişə yeniliklər yaradın ki, biz də başqalarına nümunə göstərə bilək. Allah qismət eləsin ki, bir də gələk, bir də görək, bir də sevinək! Yaratdıqlarınızın hamısı Azərbaycanımızın adınadır!

**Nicat DAĞLAR**
*Missiya.TV-nin baş redaktoru*

# Ötən ay 137 nəfərə əmək pensiyası təyin olunub

Cəmiyyətin həssas qrupu sayılan pensiyaçıların rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması tədbirləri muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu da bu istiqamətdə verilən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Belə ki, ötən ay ərzində əmək pensiyaları və məcburi dövlət sosial sığorta ödəmələri vaxtından əvvəl maliyyələşdirilmiş, pensiya ödənilməsinə 15 milyon 237 min manat, sosial sığorta ödəmələrinə isə 281 min manat vəsait xərclənmişdir. Əmək pensiyalarının və məcburi dövlət sosial sığortası hesabına ödəniş plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilmişdir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq pensiya hüququ yaranmış 137 vətəndaşa əmək pensiyası təyin edilmişdir. Bunlardan 102-si yaşa, 15-i sağlamlıq imkanları məhdudluğa, 20-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Pensiya təyin olunmuş vətəndaşların 99-u kişi, 38-i isə qadındır. Fərdi uçot sistemi ilə əhatə edilənlərin sayında da artım olmuş, fərdi şəxsi hesabı olanların sayı müvafiq dövr ərzində 280 nəfər artaraq 181 min 508 nəfərə çatmışdır.

Hesabat dövründə aidiyyəti qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 7 milyon 766 min 200 manat vəsait daxil olmuşdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 50 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq yığılmışdır. Ötən ay ərzində 2 hüquqi şəxs və 208 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınmışdır. Qeyd edək ki, muxtar respublikada yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi nəticəsində fondun gəlirləri artmış, əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına ödəmələrin vaxtlı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaranmışdır.

Fond bundan sonra da qarşıya qoyulan vəzifə və tapşırıqları qanunvericilikdə nəzərdə tutulmuş qaydada və vaxtında yerinə yetirməyə çalışacaqdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti*

# "Əmlak" informasiya bülleteninin növbəti sayı işıq üzü görüb

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin "Əmlak" informasiya bülleteninin yeddinci nömrəsi "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək keyfiyyətlə çapdan çıxıb.*

Bülletendə əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Şərur və Şahbuz şəhərində yeni çoxmənzilli yaşayış binalarının açılışına dair rəsmi məlumatlar yer alıb. Şahbuz rayonunda yeni torpaqların əkin dövriyyəsinə qatılması, muxtar respublikada taxıl biçininin mütəşəkkil aparılması ilə bağlı keçirilən tədbirlər barədə xəbərlər yerləşdirilib. Qəbul edilmiş Dövlət proqramlarında torpaqlardan səmərəli istifadə, onların mühafizəsi, uçotu və xəritələşdirilməsi ilə bağlı nəzərdə tutulmuş tədbirlərin icrasına dair yazılar verilib. Nömrədə daşınmaz əmlak sahəsində aktual olan qonşuluq münasibətlərinin hüquqi aspektləri barədə geniş material yerləşdirilib.




Daşınmaz əmlakın elektron qeydiyyatı sisteminin proqram təminatının yenilənməsi istiqamətində görülmüş işlər, xidmət tərəfindən göstərilən səyyar və elektron xidmətlər jurnalda geniş işıqlandırılıb. Nömrədə xidmətin fəaliyyət istiqamətləri üzrə həyata keçirilmiş tədbirlərə dair xəbərlərə yer ayrılıb, həmçinin cari ilin birinci yarısında görülmüş işlərə dair statistik məlumatlar, cədvəl və diaqramlar yerləşdirilib.

Vətəndaşlardan daxil olan sorğular əsasında sual-cavab rubrikası oxuculara təqdim edilib.

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti*

## Ədəbiyyatşünas alimə həsr olunan tədbir



*AMEA Naxçıvan Bölməsində görkəmli ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü, professor Abbas Zamanovun anadan olmasının 110 illiyi münasibətilə tədbir keçirilib.*

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, professor Fəxrəddin Səfərli yığıncağı giriş sözü ilə açaraq bildirib ki, tədbir Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin alimin 110 illik yubileyi münasibətilə imzaladığı 2021-ci il 1 oktyabr tarixli Qərara əsasən keçirilir.

Fəxrəddin Səfərli Abbas Zamanovun həyat və yaradıcılığı haqqında yığcam məlumat verərək qeyd edib ki, çətin və keşməkeşli həyat sürən alim vətənpərvər şəxsiyyət kimi formalaşmış, Azərbaycançılıq məfkurəsinə sədaqətlə xidmət etmiş, qətiyyətli mövqeyindən heç zaman dönməmişdir. Zəhmətkeş alimin ədəbiyyatşünaslıq elminə verdiyi töhfələr, Azərbaycan ədəbi mühiti, mədəniyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əvəzsiz xidmətləri vardır.

Yığıncaqda "Ədəbi əlaqələrin inkişafında Abbas Zamanov erası" mövzusunda məruzə edən Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov Abbas Zamanovun zəngin həyat və yaradıcılıq yoluna nəzər salıb. Məruzədə mətnşünas alimin çoxsahəli fəaliyyəti, onun ədəbiyyatşünaslıq elminə bəxş etdiyi əsərlər və şəxsi keyfiyyətləri təhlil olunub.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aygün Orucova "Abbas Zamanovun mollanəsrəddinşünaslıq tədqiqatları" mövzusunda məruzə edib. Məruzədə vurğulanıb ki, XX əsr Azərbaycan maarifçi realistlərinin, eləcə də romantiklərinin yaradıcılığı Abbas Zamanov tərəfindən öyrənilmiş, C.Məmmədquluzadə, Ə.Nəzmi, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev və başqalarının yaradıcılığı ilə bağlı fundamental elmi əsərlər ərsəyə gəlmişdir.

"Abbas Zamanov yaradıcılığında "Cənub xatirələri" adlı məruzə edən bölmənin Elmi Kitabxanasının direktoru Sahab Əliyeva professor Abbas Zamanovun Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, ədəbiyyatımızın daha geniş arenada tanıdılmasındakı misilsiz xidmətlərindən danışmışdır.

**AMEA Naxçıvan Bölməsinin**
**mətbuat xidməti**

*Mütəxəssis sözü*

## Arıçılıq təsərrüfatının gəlirli olmasını şərtləndirən amillər

*Muxtar respublikamızda son illər arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dövlət maliyyə dəstəyinin gücləndirilməsi bu sahədə uğurlu göstəricilər əldə edilməsinə imkan verib. Arıçılar İctimai*



*Birliyinin yaradılması isə belə tədbirlərdən biri kimi bu sahə ilə məşğul olan sahibkarlara, kənd adamlarına dövlət qayğısının ifadəsidir.*

Muxtar respublikanın arıçılıq təsərrüfatlarının sahibləri də belə qayğıya əməli işləri ilə cavab verməyə çalışırlar. Onlara maarifləndirici söhbətlər zamanı izah edilir ki, arıçılıqda yüksəkkeyfiyyətli məhsul istehsalına nail olmaq üçün bir sıra məsələlər diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, damazlıq işi yüksək səviyyədə qurulmalı, yem ehtiyatı potensialının artırılmasına ciddi önəm verilməli, maddi-texniki baza gücləndirilməli, arıçılıq məhsullarının dünya standartlarına uyğun istehsalı, tədarükü, emalı və marketinqi təmin edilməlidir.

Arıxanaların böyüdülməsi də vacib şərtlər sırasındadır. Belə ki, arıxanalarda arı ailələrinin minimum sayının 100-dən yuxarı, optimal sayının isə 250 ailə civarında olması zəruridir. Hazırda arıxanalarda arı ailələrinin sayının artırılması, əsasən, təbii beçəvermədən istifadə yolu ilə həyata keçirilir. Bu üsulun isə arıxanaların cins təmizliyini aşağısalma, məhsuldarlığa mənfi təsiretmə və yaradılmış ailələrin zəif və qışa tam hazırlana bilməməsi kimi qüsurları vardır.

Alternativ üsul isə dünya təcrübəsində geniş yayılmış, rayonlaşma prinsipinə əməl olunmaqla arı ailələrinin (pətəyi) mayalanmış cins analarla təmin edilməsidir. Bu üsul ilə arı ailələrinin hazırlanmasında arı ailələrinin formalaşma vaxtı beçə üsuluna nisbətən bir ay tez olur ki, bu da əlavə əmtəəlik bal məhsulu alınması və ailələrin qışa daha güclü hazırlanması baxımından çox önəmlidir.

Köçəri arıçılığın təbliğ edilməsinə də diqqət olunmalıdır. Ona görə ki, istehsal olunan arıçılıq məhsullarının 70 faizdən çoxu köçəri (səyyar) arıçılığın payına düşür. Bəzi həvəskar arıçı sahibkarların arıxanalarının kiçik olması, pətəklərin köçürmə üçün yararsızlığı və texniki təchizatın zəifliyi ilə əlaqədar onlar, əsasən, oturaq (stasionar) arıçılıqla məşğul olur, bununla da ildə yalnız bir dəfə əmtəəlik bal götürmək imkanı qazanırlar. Tədqiqatlar da göstərir ki, istənilən ərazi arıçılıq mövsümü ərzində yalnız bir dəfə əmtəəlik balvermə qabiliyyətinə malik olur. Əgər həmin ərazidə əsas nektar bolluğu dövrü hava şəraiti əlverişsiz keçərsə, bu imkan da itirilir. Bunun üçün köçəri arıçılığın inkişafına xüsusi önəm verilməli, bu üsulun tətbiqi ilə arı ailələrinin yaz və payız mövsümlərində normal inkişafı təmin olunmalı və bal yığımı dövrü



üçün arı ailələrində lazım olan miqdarda balgətirən işçi arı kütləsi (arıların sayca miqdarı) artırılmalıdır.

Arıçı sahibkarlar bilməlidirlər ki, köçürmə zamanı çiçək ehtiyatlarından səmərəli istifadəyə nail olunur, il ərzində bir neçə dəfə əmtəəlik bal istehsal edilir, kimyəvi zəhərlənmə təhlükələri azalır, ekoloji təmiz arıçılıq məhsulları əldə olunur və ən başlıcası arıxanalar sağlamlaşır.

**Əyyub ABDULLAYEV**
**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı**

## Əmək yarmarkası keçirilib



***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əvvəlcədən müəyyən edilmiş qrafik əsasında növbəti əmək yarmarkalarının keçirilməsinə başlanılıb. İlk belə tədbir dünən Sədərək rayonunda keçirilib.***

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 10 müəssisədən 72 boş iş yeri təqdim edilib. Nəticədə, 7 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 3 nəfərin peşə hazırlığı kurslarına, 12 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Qeyd edək ki, bu tədbirə hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət edilib. Həmin gənclərə, onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası, rəqabət qabiliyyətinin artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib. Həmçinin gənclərdən 3 nəfərin peşə hazırlığı kurslarına qeydiyyatı aparılıb.

Növbəti əmək yarmarkası oktyabr ayının 12-də Kəngərli rayonunda təşkil ediləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Fövqəladə hallara hazırlıq tədbirləri diqqətdə saxlanılır

*Muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası sentyabr ayında da təmin edilmişdir.*

94 obyektdə fövqəladə hallara hazırlığın vəziyyəti yoxlanılmış, "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində taktiki-xüsusi təlim keçirilmişdir. "Sarsılmaz qardaşlıq – 2021" döyüş atışlı birgə taktiki təliminin keçirilməsində Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq bölmələrinin şəxsi heyətinin hazırlığı və Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrinin Babək rayonunun Şıxmahmud Dövlət Meşəsində keçirilən təlimlərdə yanğın əleyhinə təhlükəsizlik təmin olunmuşdur.

Ötən ay çimərlik mövsümündə 30 min 466 vətəndaşın təhlükəsiz istirahəti təmin edilmiş, boğulma təhlükəsi ilə üzləşmiş 19 nəfər xilas edilmiş, ölüm hadisəsi qeydə alınmamışdır.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq muxtar respublikada fəaliyyət göstərən 142 ticarət obyektində, 782 qazanxanada baxış-yoxlamalar keçirilmiş, maarifləndirici söhbətlər aparılmışdır. 144 nəfər qazanxana maşinisti kursunu başa çatdırmış, 40 nəfər isə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti kursunu davam etdirir.

Muxtar respublikada pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlər ay ərzində davam etdirilərək, ümumilikdə, 11 milyon 252 min kvadratmetr ərazi dezinfeksiya olunmuşdur.

Ötən ay yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə 150 obyektdə diqqətli, 205 obyektdə nəzəri və 9 obyektdə məqsədli yanğın-texniki müayinələr aparılmış, yerli icra hakimiyyəti orqanları ilə birlikdə 3 min 843 yaşayış evinə baxış keçirilərək 76 elektrik xətti və 105 şlanqla çəkilmiş qaz xəttinin yeri dəyişdirilmiş, 1 şofbentipli su qızdırıcısının və 145 tezqatlanan tüstü borusunun istismarı dayandırılmış, 92 obyektdə icbari sığorta müqaviləsinin bağlanılması təmin edilmişdir. Həmçinin keçirilən baxışlar zamanı 11 min 269 vətəndaş yanğına qarşı təlimatlandırılmışdır. Naxçıvan şəhərinin ictimai yaşayış binalarında 184 mənzilə baxış keçirilmiş, onlardan 71-də tüstü bacaları və havaçəkən kanallar təmizlənmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Hesabat ayında nazirliyin aparatı və struktur qurumlarından 648 nəfər şəxsi heyət COVID-19 peyvəndinin vurulmasına cəlb olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

## Muxtar respublikada yeni layihəyə start verilib

*Naxçıvan Muxtar Respublikasında futbolun kütləvi hal alması üçün məqsədyönlü addımlar atılır, müvafiq tədbirlər həyata keçirilir. Bu idman növünün təbliği və kütləviliyinin artırılması, istedadlı və perspektivli gənclərin üzə çıxarılması məqsədilə "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun nəzdində "Araz-Naxçıvan" futbol məktəbinin fəaliyyətə başlaması da həmin tədbirlərin davamıdır. 5-15 yaş arası uşaqların iştirak edəcəyi məktəbdə UEFA-nın futbol təhsili proqramından istifadə olunacaqdır.*

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə muxtar respublikanın şəhər və rayonlarının tam orta məktəblərində fiziki tərbiyə dərslərini tədris edən müəllimlər, eyni zamanda futbol məşqçiləri ilə görüşlər keçirilib. İlk olaraq Şərur və Kəngərli rayonlarında keçirilən tədbirlərdə 100-dən artıq müəllim və məşqçi iştirak edib. Ordubad, Culfa, Şahbuz və Babək rayonlarında da analoji tədbirlər təşkil olunub.



Tədbirlərdə çıxış edən Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev yeniyetmə və gənclərin sağlamlığının qorunması, kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıb və bu sahədə görülən işlərin davamlı xarakter aldığını nəzərə çatdırıb. Vurğulanıb ki, bu gün muxtar respublikanın bütün şəhər və rayonlarında müasir təhsil ocaqları tikilərək istifadəyə verilib. Bu təhsil ocaqlarında uşaq və yeniyetmələrin idmanla məşğul olması üçün hər cür şərait yaradılıb.

Gənclər və İdman Nazirliyinin Bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxışında diqqətə çatdırıb ki, Naxçıvanda əhalinin bədən tərbiyəsi və idmana meylinin gücləndirilməsi ilə bağlı təşkil olunan tədbirlər sosial faydalı əhəmiyyətə malikdir. İdmanın kütləvi xarakter almasına yönələn belə tədbirlər müxtəlif yaş qruplarına məxsus şəxslərin cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında iştirakını təmin edir.

Futbol məktəbi haqqında geniş məlumat verən Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev bildirib ki, muxtar respublikamızda idmanın, o cümlədən futbolun inkişafı diqqət mərkəzindədir və bu sahədə görülən işlər əhalinin sağlam həyat tərzinin təmin edilməsi üçün xüsusi önəm kəsb edir. Layihənin məqsədi Naxçıvanın bütün şəhər və rayonlarındakı istedadlı uşaqları üzə çıxarmaq, onları futbol məktəbinə cəlb etməkdir. Bu işdə əsas yük fiziki tərbiyə müəllimlərinin və məşqçilərin üzərinə düşür. Futbol məktəbinə cəlb olunacaq istedadlı uşaqlar UEFA-nın tərtib etdiyi proqram əsasında məşqlər keçəcək, onların içərisində ən yaxşıları Azərbaycan millisinin düşərgəsinə göndəriləcək. Bu həm də muxtar respublikamızda uşaq futbolunun inkişafına bilavasitə təsir edəcək. "Qələbələr bir ümidlə başlayar" adlı layihədə uşaqlara çətinliklərin öhdəsindən gəlmə, qərarvermə qabiliyyəti, özünüidarəetmə və öz səhvlərindən öyrənmək bacarığı aşılanacaq.

Tədbirdə iştirak edən müəllimlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, yaradılan imkanlardan yüksək səviyyədə bəhrələnən güclü idmançılar yetişdirəcəklərini ifadə ediblər.

Tədbirdə iştirak edən müəllim və məşqçilər üçün slayd göstərilib.

Sonda bədən tərbiyəsinə marağın formalaşmasında, gənc nəslin sağlam ruhda tərbiyəsində göstərdiyi xidmətlərə görə fərqlənən müəllimlər mükafatlandırılıb.

Qeyd edək ki, layihə son olaraq Naxçıvan şəhərində təşkil ediləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Novruzova Vəfa Sabir qızının adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

***

Şəkərov Tofiq Məmmədhənifə oğlunun adına Babək rayonunun Aşağı Buzqov kəndində və Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi, bina 18, mənzil 4-5-6 ünvanında olan 3 otaqlı mənzilin texniki pasport və çıxarışları itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qarxun kəndində yaşamış Xəlilov Qənimət Həmzə oğlunun adına olan JN-167A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-514 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çərçiboğan kənd sakini Ramazanov Habil Vəli oğlunun adına verilmiş JN-98A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 837